**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyası ilə "Bakı Xəbər" qəzetinin birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından "İgid ömrü" adlı növbəti kitabı çapa hazırlayırıq. Kitab Azərbaycanın Milli Qəhrəmanı Füzuli Salah oğlu Rüstəmovun vətənpərvərlik nidalı həyat, döyüş, qəhrəmanlıq yollarından bəhs edir.**

# İgid ömrü



## Onuncu yazı

**"Füzuli oğuluydu, oğul!"**

### Komandir Sərvərin dünyamızdakı sonuncu günü

Sabirabadadır yolumuz. Mesxeti türklərinin məskunlaşdığı Axısxa kəndində yaşayan, əslən Mesxeti türkü Sərvər Rəcəbovun görüşünə tələsirik. Ömrünün əhəmiyyətli hissəsini qəhrəmanlıqla xərcləmiş sabiq Xocalı döyüşçüsü, Xocalı Özünümüdafiə batalyonunun qərargah rəisi, kapitan, "Azərbaycan bayrağı" ordenli Sərvər Rəcəbovun. Füzuli haqqında bilgilənməkdi məqsədimiz. Azərbaycan ordusunun daha bir qəhrəmanıdı Sərvər. Onunla sadəcə görüşməyin belə fəxarət olduğunun fərqindəyəm. Üstəlik o, Füzuli Rüstəmovun - Milli Qəhrəmanımızın igidliklərinin canlı şahidlərindən biri kimi əvəzsiz məlumat mənbəyidi məndən ötrü.

Sabirabada artıq sizləri mümkün qədər yaxından tanış edə bildiyim Xocalı aeroportunun milis işçisi olmuş, Füzuli Rüstəmovun yaxın dostu, qonşusu, əməliyyatlar yoldaşı Nazim Hüseynovun maşınıyla gedirik. İkimizik. Yolboyu Nazimdən Füzuli ilə bərabər Sərvərin də xarakteri, kimliyi barədə məlumatlar alıram. Nazim sorğularımı kifayət qədər dolğun cavablandırır (arabir söhbətimiz Xocalının keçmişinə - soydaşlarımızın xocalılı günlərinə, ordakı yaşam tərzinə, hətta ermənilərlə o zamankı münasibətlərin bəzi detallarına qədər uzanır. Axtarışlarımın buna bir o qədər dəxli olmadığından o məlumatları buraya əlavə etmirəm - N.Z.). Əldə etdiyim məlumatlardan qaynaqlanan suallarımı və ona verilən cavabları isə Sərvərin öz dilindən təqdim edəcəyəm sizlərə. Soruşduqlarım mənim jurnalist marağımın "obyekti" hərtərəfli, yaxşı öyrənmək istəyinin büruzə verilmiş hissəcikləridir.

...Bu da Axısxa. Sabirabad rayonunun mərkəzindən təxminən 30 kilometr məsafədə yerləşən kəndin müasir standartlara cavab verəcək magistral yolu var. Deyilənə görə, bu rahat yolun yaşı çox deyil. Yaxın illərdə ərsəyə gətirilib. Kəndin içərisinə bir qədər girib Sərvərin evini soraqlayırıq. Qarşımıza çıxan ilk adamlar evin yerini göstərəndə onların çöhrəsində qəribə bir nigarançılıq, narahatlıq hisslərinin baş qaldırdığı diqqətimizi cəlb edir. Əbəs deyilmiş bu təlaşlar... Sərvəri çarpayıda, ölüm yatağında görürük. Komandir heç qalxıb bizimlə ayaq üstə görüşmək iqtidarında da deyil. "Qara ciyər serrozu" pəhləvan eloğlumuzu elə sarıb ki...

Vəziyyəti ilə maraqlanırıq. Ayaqları şişkin, iştahı yox. Kənd camaatı dəstə-dəstə onu yoluxmağa, əslində üzə vurmasalar da, onunla vidalaşmağa gəlir. Onlardan biri dedi ki, iki gün öncə sonuncu dəfə Sabirabad rayon xəstəxanasında ciyərindən su çəkiblər Sərvərin. Ailə üzvləri, doğmaları narazılıqlarını da izhar etdilər ki, belə bir döyüşçü ölüm yatağındadır, ancaq rayon rəhbərliyindən onunla maraqlanan yoxdur. Həkimlərin dediyinə görə isə, qara ciyər köçürülsə komandirin həyatını xilas etmək mümkün ola bilər.

### "Azərbaycan bayrağı" ordenli döyüşçü ölüm ayağındadır

Söhbətimizi bir qədər yubadıb, elə Axısxadaykən paytaxtda fəaliyyət göstərən bir neçə internet portallarına və sosialyönümlü televiziya verilişlərinin müəlliflərinə telefon açdım. Özüm tez-tələsik media qurumlarımıza aşağıdakı məzmunda müraciət hazırladım:

Əziz media qurumları! Əziz dostlar!

Respublika Xatirə Kitabının xəttilə Azərbaycanın Milli Qəhrəmanı Füzuli Rüstəmov haqqında yazdığım kitaba materiallar toplamaq üçün Sabirabad rayonuna ezam olunmuşam. Səfərdən məqsədim burada - mesxeti türklərinin məskunlaşdığı Axısxa kəndində yaşayan sabiq Xocalı döyüşçüsü, Xocalı Özünümüdafiə batalyonunun komandiri, kapitan, "Azərbaycan bayrağı" ordenli Sərvər Rəcəbovla həmsöhbət olmaqdır.

Xocalılı döyüşçülərdən olan Nazim Hüseynovun bələdçiliyi ilə baş tutan səfərimiz zamanı bu qəhrəman komandirin sağlıq durumu əhvalımızı korladı. Sərvər Rəcəbov hazırda "qara ciyər serrozu"ndan əziyyət çəkir. Həkimlər onun ciyərinə yığılan suyu çəkməklə öz işlərini bitmiş hesab edirlər. Lakin doğmalarının xüsusi narahatlıqla verdikləri məlumata görə, qəhrəman döyüşçümüzün sağalması tamamilə mümkündür. Bunun üçün sadəcə olaraq ailənin imkanları çox məhduddur.

Əziz dostlar!

Məlumat üçün bildirim ki, Sərvər Rəcəbov Özbəkistanın Fərqanə vilayətindəki hadisələrdən dolayı oradan didərgin düşmüş mesxeti türklərindəndir. Azərbaycana gəldikdən sonra isə Xocalıda məskunlaşaraq burada milis (polis) sıralarında xidmət edib. Bu zaman Xocalıya ermənilərin hücumları başlayıb. Ona görə də S.Rəcəbov Xocalı Özünümüdafiə batalyonunu yaradaraq Xocalı ətrafında postların qurulmasını və şəhərin qorunmasını təşkil edib. 1989-cu ildən 26 fevral 1992-ci ilə - Xocalı soyqırımı gününə qədər. Həmin gün o da ailəsi - anası, qardaşı və cəmi beş gün əvvəl doğulmuş körpəsini götürüb Xocalı əhalisi ilə birgə böyük məhrumiyyətlərdən keçərək Ağdam ərazisinə gəlib çıxa bilib.

Sərvər ailəsini təhlükəsiz yerə çıxardıqdan sonra yenə Qarabağa - ermənilərlə döyüşə qayıdıb və Xocalı batalyonunu bərpa edib. Burada da böyük qəhrəmanlıqlar, şücaətlər göstərib. Xalqımız qarşısında fədakarlıqlarını nəzərə alan mərhum dövlət başçısı Heydər Əliyev Sərvər Rəcəbovu "Azərbaycan bayrağı" ordeni ilə təltif edib.

Əziz dostlar!

Həyatını Azərbaycan uğrunda səfərbər etmiş Sərvər Rəcəbovun indi Azərbaycan dövlətinin və xalqının yardımına ehtiyacı var. Sərvərin ailəsi onun müalicəsinə kömək etmək üçün müvafiq dövlət qurumlarına, imkanlı şəxslərə müraciət etməyinizi, ən azı sabiq döyüşçünün sağlıq durumunun kritikliyini ictimailəşdirməyinizi istəyir. Bu həyəcan təbilinin iştirakçısı olmaqsa hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur...

Bu məzmunda müraciəti əksər media qurumlarına təcili ünvanladım. "Axısxa türkü olan "Azərbaycan bayrağı" ordenli döyüşçü ölüm ayağındadır" başlıqlı yazı ilə Modern.az, Day.az, Publika.az, Avropa.info və digər saytlarda çalışan dostlarımız həmin məlumatı anındaca tirajladılar. Bu bizi bir qədər ürəkləndirdi də...

### "Ruhu bizimlə qalar"

Bir gün sonra bu məlumatı daha geniş media şəbəkəsinə çıxarmaq istəyirdim ki, bu anda... artıq dostlaşdığımız Nazim mənə telefon açdı. Və həyəcanlı səslə Sərvərin dünyasını dəyişməsi xəbərini verdi. Bu xəbəri almaq mənim üçün də çətin oldu. "Azərbaycan bayrağı" ordenli döyüşçümüz, məşhur qəhrəman, əslən mesxeti türkü olan Sərvər Rəcəbovun dünyasını dəyişməsi xəbərindən ikimiz də sarsıldıq. Nə yaxşı ki, onun müsahibəsini yaza bilmişdim. Müraciətimin ardınca Sərvərin ölüm xəbərinə yazdığım başsağlığı-nekroloqunu mediaya ünvanlayası oldum. Nekroloqu da bir çox media qurumları mənə istinadla məyusluqla ictimailəşdirdilər. Sosial şəbəkələrdəki dostlar başdan-başa Sərvərin ölümündən yazdılar. Şair-publisist dostumuz Əli Rza Xələfli nekroloqun altından belə bir şərh yazmışdı: "Ruhu bizimlə qalar, inşallah, səsi isə dostum Nəzirməmməd Zöhrablının qələmində görüşümüzə gələr".

Gözəl yanaşmaydı. Qəhrəmana qəhrəmansayağı əsgər sayğısı olsun bu biz dostlardan. Rahat yat, komandir! Kaş biz də sənin ruhuna Xocalının azadlıq salamını ərməğan edə bilək!

### Sərvər: "Füzuli tüfənglə erməniləri gəbərdə-gəbərdə meşələri gəzirdi"

Nazimlə gəldiyimi görüb çox sevinir. Yataqdan qalxa bilməsə də, keçmiş döyüşçü dostlar bir-birinə sarılıb xeyli qucaqlaşıb öpüşürlər. Bu anı bütün təfsilatı ilə yazıya gətirmək çox çətindi, onu ancaq əyani şəkildə gözlə görmək mümkün idi. Üstəlik, onların görüşünə səbəb olmağımın fərəhini yaşamaq səadətinin mənə verdiyi rahatlığın da bu məqamda xüsusi yeri görünürdü!..

Bütün varlığı və manerası ilə hərbçi xarakterini bu halında da canında yaşadan Sərvərin Nazimdən ilk soruşduğu söz dostunun övladları barədə olur. Nazim "böyük oğlum bu yaxınlarda karate və kepling dzü-do üzrə üçqat dünya çempionu oldu" deyən kimi dostunun övladının uğurundan sonsuz mütəəssir olan Sərvərin sevincdən gözləri yaşardı. Sabiq hərbçi-komandir bu anda bəlkə də bütün ağrılarını unudaraq bizimlə söhbətə davam etdi. İlk yadına düşən oğlunun Xocalı faciəsindən az öncə doğulması faktını xatırlaması oldu:

- Xocalı faciəsi günü mənim oğlum Azad cəmisi beş gün idi doğulmuşdu.
- Siz Xocalıya Fərqanə hadisələrindən sonra gəlib çıxmısız?
- Bəli.
- Bəs necə oldu ki, sizi Xocalıda məskunlaşdırdılar?

Sərvəri yoluxmağa gələn həmkəndlilərindən biri kənardan müdaxilə edir söhbətimizə:

- Demişdilər orda fin evləri tikiblər, gedin yerləşin o evlərdə.

Sərvər etiraz edərək söyləyir ki, Xocalıda məskunlaşmalarının əsas səbəbi bu deyil. Əslində o da, qardaşı da polis işçisi olduqlarından onları Stepanakert (Xankəndi - N.Z.) polis idarəsinə göndəriblər. Böyük qardaşı polkovnik, o isə baş leytenant rütbəsində olub o zaman. Onları buraya Daxili İşlər Nazirliyindən təyin edibmişlər.

- Köçdünüz ora, fin evlərində yaşamağa başladınız...
- Hə. Qardaşımı Şuşa həbsxanasına rəis müavini təyin etdilər, məni isə Xocalıya verdilər.

Bu zaman bizə evdə bişirilən "özbək plovu" gətirirlər. Ac olmadığımızı deyirik. Sərvər bir zabit təkidilə "əgər çörəyimdən yeməsəniz, danışmayacağam!" deyəndən sonra Nazimlə hərəmiz bir az plovun dadına baxmalı oluruq. "Özbək plovu" mənə Uzaq Şərqdə - keçmiş SSRİ-nin Xabarovsk vilayətindəki hərbi qulluq illərimi xatırladır. Orda aşbaz işləyən özbək əsgərlər bu plovdan bişirərdilər xüsusi, əlamətdar günlərdə. Təbii ki, bizim plov bütün çeşidlərilə daha dadlı-ləzzətlidir. Ancaq əsgər üçün o zaman fərqli nəyinsə, xüsusilə plov adına nəyinsə ələ düşməsi xüsusi bir bayram ovqatı sərgiləyirdi. Əlqərəz, bu plovun adını eşidincə bir anlığa 35 il öncəyə qayıdıram xəyallarımda. Bu öz yerində, amma fürsəti fövtə vermək olmaz. Sərvərin könlünü qırmamaq və onu danışdırmaq lazımdı. Açığı, Sərvərin bu halını gördüyümüzdən iştahla yeyə bilmirik. Yoxsa "özbək plovu"nun tanış-nostalji dadına baxmaq elə də pis olmayacaqdı. Əlqərəz, iştahsız da olsaq, Sərvəri razı salmaq üçün bir az yeyib söhbətimizə davam edirik. Deyir Füzulini Xocalıya düşən kimi tanıyıb. Səbəbi Füzulinin qoçaqlığı, o çətin günlərdə fərqlənməyi, ermənilərə rahatlıq verməməyi olubmuş.

- Baş qərargah rəisi olduğunuz Xocalı Özünümüdafiə Batalyonunu yaratdıqdan sonra onun tərkibinə qoşulduğuna görə tanış oldunuz Füzuli ilə?
- Yox. Ondan xeyli əvvəldən. Füzuli oğuluydu, oğul! Füzuli bir yerdə dayanıb-duran oğul deyildi. Gecə-gündüz çiynində tüfəng gəzərdi meşələri. Erməniləri gəbərdə-gəbərdə. Heç kim getməsə də, o bu Nazimgillə bərabər gedib erməninin "anasını ağladıb" gəlirdi. Əsgəranda, Həsənabad kəndində, başqa kəndlərdə. Çox "boyevoy" (döyüşkən - N.Z.) oğlan idi.
- Sərvər müəllim, mən sizə demişdim telefonda. Məlumunuz olsun deyə bir daha bildirim ki, bu, Mədəniyyət Nazirliyi Xatirə Kitabı redaksiyası ilə "Bakı Xəbər" qəzetinin birgə layihəsi əsasında yazılan kitabdı. Hər dəfə bir şəhidimizə həsr olunur. Bu dəfə məsləhət oldu ki, Füzulidən yazılsın, Füzulinin bir bacısından başqa heç kiminin olmadığını söylədilər. İndi biz o kitabı çapa hazırlayırıq. Füzulinin bacısı Fiqurə xanımı da, Nazimi də, digərlərini də danışdırmışam. İndi növbədə sizsiniz həmsöhbətim...
- Lap yaxşı. 1989-cu il noyabrın 19-da Xocalı Özünümüdafiə Batalyonu yarandı. 1990-cı ilin yanvarında isə tam fəaliyyətə başladı. Batalyonun əsas funksiyası oldu camaatı, kəndi qorumaq, növbə ilə erməniyə qarşı səngərlərdə, postlarda dayanmaq, bir də əməliyyatlar keçirmək. Bu idi fəaliyyətimiz. Batalyona ilk qoşulanlardan biri Füzuli oldu.
- Məsələn, Nazim deyir ki, ən çətin, ən etibarlılıq tələb edən işləri Füzuliyə həvalə edirdik. Həttə Əlif Haciyevlə məsləhətləşib sonradan Azərbaycanın Milli Qəhrəmanı adını almış cəsur döyüşçü, Xocalıda yaralı yatan Aqil Quliyevi Ağdama çatdırmağı da Füzuliyə tapşırmağı planlaşdırıbmışlar. Sadəcə olaraq, plan Xocalının sonuncu günlərinə təsadüf etdiyindən, yollar çox təhlükəli olub deyə, nəticədə bu niyyət baş tutmayıb...
- Çox qəhrəman oğul idi. Nədənsə çəkindiyinin şahidi olmadım. Hara desən başı üstə gedirdi. Getdiyi işi də yüz faiz yarıdıb qayıdırdı. Gedib kəşfiyyat aparırdı. Gəlib xəbər verirdi ki, orada nə qədər erməni, nə qədər silahları var. Çox zaman onların silahlarını götürüb gətirirdi. İnanın ki, Füzuli batalyonu silahla təmin edirdi.

Nazim qoşulur bu yerdə söhbətimizə:

*(Ardı növbəti sayımızda)*